# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ÇAYLARIN EKOLOJİ VƏZİYYƏTİ

**İbrahimova M.İ.**

*Bakı Dövlət Universiteti*
*meleykeibrahimova51@gmail.com*

Qarabağ ərazisindən başlayan çaylar əsasən Kür-Araz çaylarına və yaxud da onların hövzəsinə aid olan çaylara tökülür. Burada olan çaylar yağış və qar suları ilə qidalanır və suyundan suvarmada istifadə olunur.

Ermənistan hərbi qüvvələrinin işğalı nəticəsində ölkəmizin 20% ərazisi 30 il müddətində işğal altında qalmışdır. Bu 30 illik zaman kəsiyində torpaqlarımız amansız şəkildə istismar olunmuşdur. Eyni zamanda ərazidə torpaqların çirklənməsi meşələrin qırılması təbii sərvətlərin amansızcasına istismar edilməsi bu ərazilərdə ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur.

İkinci Qarabağ müharibəsindən sonra aparılan monitorinqlər nəticəsində ekoloqlar bir vaxtlar gözəlliyi ilə göz oxşayan meşələri qırılmış çayları gölləri tamamilə çirklənmiş halda gördülər.

İşğal dönəmində Sərsəng su anbarı bu ərazilərdə yaşayan 400 min insan üçün potensial təhlükə kəsb edirdi. Qış aylarında su anbarının açıq qalan şlüzləri əhalinin məskunlaşdığı ərazilərin su altında qalmasına səbəb olurdu. Bu həmçinin kənd təsərrüfatına və kommunikasiya xətlərinə ziyan vururdu. Yay aylarında isə mənfur düşman suyun qarşısını kəsərək quraqlığın yaranmasına səbəb olurdu.

Alman şirkəti olan CRONİMET Ermənistandan dağ-mədən sənayesinin inkişafında əsas rollardan birinə sahibdir. Bu kampaniya ətraf mühitə və ekoloji duruma vurduğu ziyana görə edilən xəbərdarlıqlara heç bir məhəl qoymamışdır.

Ərazilərin ekoloji nəzarətdən uzaq qalması uzun illər bu ərazinin ekoloji vəziyyəti haqqında dəqiq məlumat əldə etmək mümkün olmayıb. Lakin bu gün işğaldan sonrakı dövrdə ətraf mühitin çirklənmə səviyyəsinə nəzarət məqsədilə müntəzəm olaraq monitorinqlər keçirilir.

İşğal dönəmində və işğaldan sonra əsas ekoloji fəlakətlərdən biri Oxçuçayın vəziyyəti ilə bağlıdır. Oxçuçayın ümumi uzunluğu 83 km təşkil edir. Bu bölgənin 4 əsas transsərhəd çayları olan Araz, Bəsitçay, Bərgüşadçay və Oxçuçay Azərbaycan Ermənistan arasında axır. Bu ərazilərin uzun müddət işğal altında qalması bu çayların dəqiq ekoloji vəziyyəti haqqında məlumat almaq mümkün olmurdu. İşğaldan sonra bu ərazilərdə keçirilən monitorinqlərin nəticəsi olaraq bu bölgənin çaylarında ekoloji vəziyyətin çox gərgin olduğu və istifadə üçün yararsız olduğu qənaətinə gəlinmişdir.

Çirklənmə dərəcəsinə görə ən gərgin vəziyyət Oxçuçaydadır. Bu çay Zəngəzur mis-molibden və Qafan mis-saflaşdırma zavodlarının





təmizlənməmiş sənaye suları ilə çirklənmişdir. Xatırladaq ki, bu müəssisələr Ermənistan ərazisində yerləşir. Həmçinin bu çaylar Qafan və Qacaran şəhərlərinin məişət tullantıları ilə də çirklənmişdir. Oxçuçayın bu dərəcədə çirklənməsi Azərbaycan üçün çox vacib məsələdir. Belə ki Oxçuçay Araz çayına tökülür.

Nəzərə almaq lazımdır ki Araz çayı Cənubi Qafqazda 2-ci böyük çaydır. Araz çayı kənd təsərrüfatında suvarmada önəmli rola sahibdir. Oxçuçayın Ermənistan ərazisində çirklənməsi və çirkli suların Araz çayına tökülməsi ciddi ekoloji problemlərin yaranmasına səbəb olur. Mütəxəssislərin məlumatına görə çayda mis-molibden birləşmələri normadan 2 dəfə çoxdur. Dəmir birləşmələri 4, nikkel və digər birləşmələr 7 dəfə çox olmuşdur.Oxçuçay rəngini dəyişərək müxtəlif günlərdə ağ və ya sarı rəng olur.

Ağır metal birləşmələri təkcə çayın faunasına yox, həm də insanların sağlamlığı üçün son dərəcə təhlükəlidir. Oxçuçayın çirklənməsinin qarşısının alınması məqsədilə elmi cəhətdən əsaslandırılmış tədbirlərin müəyyənləşdirilməsi və reabilitasiya proqramının hazırlanması məqsədilə tədqiqat qrupu yaradılmışdır. Burada beynəlxalq elmi tədqiqatların təcrübəsinə böyük ehtiyacımız var.

Hal-hazırda Qarabağ və ətraf rayonlar işğaldan azad olunmuşdur. Bu ərazilərdə işğaldan azad olunduqdan sonra bir sıra monitorinqlər keçirilmiş və keçirilməyə davam edir.